**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№351/1** **07 dekabr 2022-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının**
**2023-cü il üzrə iş planı barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına (2021-2030-cu illər)", Auditorlar Palatasının 2023-cü il üzrə iş planının əsasında hazırlanmış Auditorlar Palatası Şurasının 2023-cü il üzrə iş planının layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2023-cü il üzrə iş planı təsdiq edilsin (əlavə olunur).
2. Məsul icraçılara tapşırılsın ki, bu iş planında nəzərdə tutulmuş işlərin vaxtında və yüksək keyfiyyətlə hazırlanmasını və təqdim olunmasını təmin etsinlər.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, Auditorlar Palatası Şurasının müzakirəsinə təqdim olunmuş işlərə müvafiq qaydada rəylərin alınmasını, Şura qərarlarının layihələrinin məsul şəxslərlə birgə hazırlanmasını və müzakirəsinin təşkilini təmin etsin.
4. Bu qərarın və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2023-cü il üzrə iş planının mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**